# "Azərbaycan" qəzetinin səhifələrində

102-ci yazı

**Generallıq dərəcəsinə yüksəlmə**

Cənab polkovnik Mahmud Pənahiyana xalq qoşunları işlərində yorulmadan fəaliyyət göstərdiyinə görə Azərbaycan Milli Hökuməti tərəfindən ona general rütbəsi verildi.

*"Azərbaycan" qəzeti. ADF orqanı, Təbriz, say 177, 19.04.1946*

***

**Çağırış**

Azərbaycan milli radio proqramı bu yaxın zamanda Milli Radio Heyəti tərəfindən ən görkəmli və gözəl bir tərzdə təkmil olunub və Azərbaycan radio orkestri tərəfindən musiqi, ədəbi parçalar və xarici dillərdə xəbərlər veriləcəkdir. Habelə dövlət teatrı artistləri də bu proqramda iştirak edəcəklər. Ona görə Azərbaycan, fars, fransız, ingilis və rus dillərində danışmaq üçün adlarını qeyd etdirmək istəyənlər və habelə radio işlərində texniki işçilərdən səhər saat 10-dan 12-yə qədər "Azad millət" qəzeti redaksiyasına müraciət etmələri xahiş olunur.

Azərbaycan Milli Radio Heyəti tərəfindən.

*"Azərbaycan" qəzeti. ADF orqanı, Təbriz, say177, 19.04.1946*

***

**Ölkəmizdə ədalət hökm sürəcəkdir**

Budur, 4 aydan bəri hamının səbirsizliklə gözlədiyi, yəni azadlığını tələb etdiyi üçün xalqımızı xaincəsinə top, tank və pulemyota bağlamaqla Urmiya şəhərini qan dəryasına döndərən, ana və ataları oğulsuz və məsum uşaqları yetim qoyanların cəza günləri gəlib çatmışdır.

Polkovnik Zəngənə və onun quldur dəstələrinin rəhmsizcəsinə əliyalın xalqımızın üzərində törətdikləri saysız-hesabsız vəhşi cinayətlər azərbaycanlıların ürəklərində unudulmaz bir nifrət yaradıbdır.

Polkovnik Zəngənə kimdir? Bu ləyaqətsiz ünsür illərdən bəri istismar siyasətini həyata keçirən köhnə dəllalların əllərində çomaq olmuşdur. Bu axırıncı missiyasını da Azərbaycan xalqının azadlığı uğrunda başladığı böyük hərəkatda büruzə verdi. Polkovnik Zəngənə bu çirkin əməli ilə Azərbaycan xalqının azadlığının ən qəddar düşməni olduğundan ədalət məhkəməsi qarşısında öz qanlı cinayətlərinə görə cəzasına çatması xalqımız tərəfindən səbirsizliklə gözlənilir.

Polkovnik Zəngənə və onun əməkdaşları tank, top və pulemyot ilə silahsız xalqı şəhid edəndə xəyal etmirdilər ki, bir gün qalib çıxacaq ki, bu yetim uşaqların, oğulsuz ana və ataların ah və nalələri onları tutacaqdır. Qoy bir ölkənin xalqının müqəddəratını top, tank, pulemyot ilə təyin edən polkovnik zəngənələr cəzalansınlar.

24 il xalqımız mürtəce hökumətin əlində əsir bir halda yaşadıqdan sonra indi öz qurduğu Milli hökumətin ədalət aparatından ciddi surətdə tələb edir ki, bu caniləri etdikləri cinayətlərinə görə tam cəzalarına çatdırmaqla sübut olsun ki, bundan sonra ölkəmizdə yalnız ədalət hökm sürəcəkdir və bir daha polkovnik Zəngənə kimi quldurlara meydan verilməyəcəkdir.

*"Azərbaycan" qəzeti. ADF orqanı, Təbriz, say 177, 19.04.1946*

***

**XIX və XX əsrlərdə Təbrizdə ədəbiyyat (2-ci hissə)**

Bu dövrdə Cənubi Azərbaycan şairləri içərisində nəzər-diqqəti cəlb edən Əbülqasım Nəbati (1812-1874 miladi) ümumən Azərbaycan ədəbiyyati tarixində böyük yer tutur. O, Qaracadağ mahalının Uşdebin kəndində anadan olmuş və Azərbaycanın iki yerə parçalandığı günlərdə yazıb yaratmışdır. Əvvəllər heyvandarlıqla məşğul olan Nəbati öz sürülərini Araz sahillərində, qış zamanı isə Muğan çöllərində saxladarmış. Lakin Azərbaycanın sərhədləri ayrıldıqdan sonra Nəbati Muğan düzünə keçə bilməyir. Odur ki, el arasında Nəbati "Xan çoban", "Məcnun", Məcnunşah" təxəllüsləri ilə də şeirlər demişdir. Xan Çoban Nəbati haqqında belə sözlər indi də yaşamaqdaır:

**Gedin deyin Xan çobana,**
**Gəlməsin bu il Muğana,**
**Muğan batıb qızıl qana.**

Nəbati sonralar maldarlığı tərk edərək bostançılıqla məşğul olmuş, daha sonralar isə Əhərə köçərək orada Şeyx Şəhabəddinə qonşu olmuşdur. Nəbati bir tərəfdən Füzuli ilə başlanan şeir yolunu davam etdirirsə də digər tərəfdən Vaqiflə başlanan təzə ədəbiyyatımızın gözəl nümunələrini yaradır. Bəzi kəlmələri qəliz olsa da ümumən onun yaradıcılığı sadə və xalq ədəbiyyatı təsiri altındadır. Məsələn:

**Özü şirin, sözü şirin şəhdü şəkəriz,**
**İşvəsi dilrüba, qəmzəsi xunriz,**
**Yanağı bərgi-gül, zülfü dilaviz,**
**Dəhanı mirvari xəzanəsidir.**

Bu misralarda real təsvir, realizmin hakimliyi nəzərə çarpır. Nəbati şeirlərinin çoxunu heca vəznində yazmışdır. Bu gün bəzi şairlərin heca vəznində yazmağa "enməməsi" kimi gülünc niyyəti gördükdə yüz il qabaq yazıb yaradan və heca vəzninə hakim olan Nəbatinin böyüklüyü nə qədər bariz şəkildə təsdiq olunur.

Nəbati heca vəzninin müxtəlif növlərindən, xüsusən 11 hecadan daha çox istifadə edir. Aşıq ədəbiyyatında çox yayılmış təcnislər onun şeirlərində də vardır. O, təcnisdən çox məharətlə istifadə etmişdir:

**Nəbati tək dəryaları üzəsən,**
**Siyah zülfün əfşan ilə üzəsən,**
**Qəmər tək buluddan çis bir üzəsən**
**Çox da verməginən ayaza məni.**

Müasir Təbriz şairlərindən bəziləri indi "hazır" sözü ilə "yazır" sözünü qafiyə hesab etməyərək şeirin şəkli cəhətlərini fars, ərəb şeiri qaydalarına tabe etməyə çalışdıqları halda Nəbati yüz il əvvəl Azərbaycan dilinin danışıq tərzini əsas götürmüşdür. Qafiyə məsələsində o, xalq yaradığılına əsaslanır və bəzən qalın saitlərlə incələri qafiyələndirir. Məsələn:

**Mən qurbanı olum ənbər tellərin**
**Qönçə dodaqların, püstə dillərin**
**O lalə rüxsarın, meşkin xalların**
**Oduna pərvanə gəlsin, gəlməsin.**

*H. S.*

*"Azərbaycan" qəzeti. ADF orqanı, Təbriz, say 177, 19.04.1946*



***

**Diqqət! Diqqət! Çox mühüm!**

21 Azərdə gənc nəslin milli şüurunun formalaşmasına aid nümunələrdən...

Mən də fədailərə hədiyyə gətirmişəm.

Bijən çoxdan idi ki, mənim intizarımı çəkirdi. Mən idarəyə gəldikdə mizin üstündə kiçik bir qutu gördüm. Ondan buraya nə üçün gəldiyini soruşdum. Məsum baxışlarını mizin üstündəki qutuya dikib "mən də fədailərə hədiyyə gətirmişəm", - dedi.

Daxilində olan pulların var-yoxu 88 riyal iki abbasıdan ibarət idi, hədiyyə komissiyasına gətirmişdi. Onların hamısı on şahılıq idi. Onları saymaq mənim vaxtımı alırdısa da, çox sevinclə Bijənin verdiyi bütün hesabına yetişdim. Mən bu zaman onu tələsən kimi hiss edirdim. Hesabı qurtarcağın, "bəs mənə kağız vermirsən?" - deyə üzümə baxdı. O, evlərində atasının verdiyi hədiyyənin qəbzini görüb və onun nə olduğunu soruşur. O da deyir ki, fədailərə pul verib bu kağızı almışam. Bijən dərhal şəraitdən istifadə edərək demişdi ki, qoyarsız, mən də pul verib qəbz alam?

Müsbət cavab eşitdikdən sonra dəxilini açıb və özü dediyi kimi, fədailərə o da hədiyyə gətirmişdi. Bu pak hisslər xalqımızda olan səmimiyyətdən və milli şüurumuzdan böyük nümunələrdirlər.

*"Azərbaycan" qəzeti. ADF orqanı, Təbriz, say 168, 09.04.1946*

***

**Uşaqlarımızda vətən duyğusu**

"Azərbaycan" qəzetinin 168-ci sayında Bijən Ədibin fədailərə verdiyi hədiyyə və onun Azərbaycan Milli hökumətinə göstərdiyi maraq və məhəbbət hörmətli əhalinin nəzər-diqqətini cəlb etməklə bərabər onların duyğulanmasına səbəb olmuşdur.

Bu sevimli baxışlı uşağın Azərbaycan Milli hökumətinə bəslədiyi məhəbbət və marağını yalnız onun bu hədiyyə verməsindən anlamaq olar. Bu uşağın göstərdiyi maraq gərək özgələr üçün də nümunə olsun. Bundan məlum olur ki, Azərbaycan xalqının hətta kiçik yaşlı uşaqların da öz möhtərəm Milli hökumətlərinə nə qədər məhəbbətləri vardır.

Qoy bütün dünya bilsin ki, Azərbaycan xalqının körpə uşaqları da həqiqi olaraq öz vətənlərinə puldan da və anadan da artıq maraqları vardır. Balaca balalarımız da vətənlərini ürəkdən sevməyi özlərinə müqəddəs vəzifə bilirlər.

Yaşasın Azərbaycan xalqının qeyrətli fədailər dəstəsi və yaşasın onu yaradan xalqımız!

*Nəcəf Fəxrəddini*

*"Azərbaycan" qəzeti. ADF orqanı, Təbriz, say 177, 19.04.1946*

***

**Hövzəyə məktub**

**Ol həftə ki, hövzəmiz var idi**
**Əz qəza, evdə rövzəmiz var idi!**
**Gəlməyə mən tapammadım imkan**
**Firqəyə məndə gərçi var iman**
**Bəndəni siz tanırsız əvvəldən**
**Nifrətim vardı şəxsi-tənbəldən**
**Gecə-gündüz işim siyasətdir**
**Çarə yoxdur, bu məndə adətdir!**
**Firqə üzvü gərək bilə qanun**
**Yaxşıyam bəndə? Sən bil imanun?!**
**Adətən mən yaranmışam fəal**
**İşlərəm firqəmizdə bu minval**
**İmanım bavər et ki, möhkəmdir**
**Gər yalansa, yerim cəhənnəmdir.**

**

**O biri həftədə işim var idi**
**Deməyin ki, filani bikar idi**
**Dəvət etdi biri rəfiqlərdən**
**İttifaqən gələmmədim birdən**
**Müxlisin orda kamilən xoş idi**
**Doğrudan baxsaniz, yerün boş idi.**
**Başladım irticaya orda yaman**
**Bəndəyə eyləyin siz etminan!**
**Söylədim orda: firqəmiz yaşasın!**
**Odladım mürtəcelərin atasın**
**Gecə-gündüz işim bu cürdü mənim**
**Firqədir bavər elə, bax dinim!**
**Firqə üzvi gərək ola**
**Lənət olsun oportunistlərə**
**Mən faşizmə bekülli bədbinəm**
**Gər yalansa, İlahi: bidinəm!**

**

**Sabah-axşam ki, hövzəmiz vardır**
**Mənə gəlmək inan ki, düşvardır.**
**Olmuşam çün idarədən məmur**
**Lütf edib siz tutarsınız məzur**
**Müxtəsər, bəndə hər zadı billəm**
**Hövzəyə ömrüm olsa gər, gəlləm**
**Kartımı saxlayın xülasə kəlam**
**Katibə, sədrə də varımdı salam.**

*F. X.*

*P.S. Çox güman ki, bu imza Fəti Xoşginabiyə məxsusdur - S.B.*

*"Azərbaycan" qəzeti. ADF orqanı, Təbriz, say 177, 19.04.1946*

***

**Səhiyyə xəbərlərindən: Yeni xəstəxanalar**

Səhiyyə Nazirliyi tərəfindən bu günlərdə Azərşəhrdə 14, Marağada 40, Miyandoabda 30, Sayınqalada isə 10 yataqlı (yəni çarpayılı) xəstəxanalar açılmışdır.

Bu xəstəxanaların həkimləri, həkim köməkçiləri və xəstə baxıcıları təyin olunub və hər növ dərmanlarla təmin edilmişdir.

*"Azərbaycan" qəzeti. ADF orqanı, Təbriz, say 177, 19.04.1946*

***

**İqtisadiyyat xəbərləri... Azərbaycanın hər nöqtəsində dövlət mağazaları**

Təbrizdə açılan iqtisad mağazalarından əlavə Ticarət və İqtisad Nazirliyi tərəfindən Azərbaycanın hər nöqtəsində, məsələn, Xoy, Urmiya, Marağa, Zəncan, Əhər, Miyana, Maku, Salmas, Azərşəhr, Miyandoab, Ərdəbil, Astara, Xalxal, Meşkin, Sulduz, Mərənd, Ələmdar və Sarab kimi şəhərlərində də yeni mağazalar açılmışdır. Bu mağazalarda dövlət inhisarında olan bütün mallar satılmaqdadır.

**Zəy mədəni işə salındı.**

Zəncanda olan Zəy mədəni bu günə qədər istifadəsiz qalmışdı. Lakin indi milli dövlətimiz tərəfindən bu mədən də işə salınmışdır.

*"Azərbaycan" qəzeti. ADF orqanı, Təbriz, say 177, 19.04.1946*

***

AMEA akad. Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun "İran tarixi və iqtisadiyyatı" şöbəsinin elmi işçisi Saleh Dostəliyev, yazıları elmi redaktə edən, şərhlər verən, anlaşıqlı dildə təqdim edən eyniadlı institutun Cənubi Azərbaycan şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Səməd Bayramzadə